

# Universitet zəkası

## Şanlı dost təbriki

Məryəm ƏLİZADƏ

Əziz dostum Kamal Abdullanın mübarək yaşını qutlamağımızla ilgili iki təbrik səsləndirmək istəyirəm. Birincisi, nə xoş ki, Ali Baş Komandanımız, liderimiz, hünərvər Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə şanlı ordumuz möhtəşəm Qələbə sevincini bizə yaşatdı, Qarabağı ana Azərbaycanın ağuşuna qaytardı...

Kamal! Bu tarixi hadisə sənin ad gününün ərəfəsində oldu və gör nə xoşbəxtsən ki, İlahidən sənə misli-bərabəri görünməyən bir hədiyyə göndərildi. Bilirəm, hər birimiz kimi, sənin də bir gözün gülür-bir gözün ağlayır, amma həm də intəhasız sevincin yerə-göyə sığmır. Tez-tez səsin-sorağın igid şəhidlərimizin ailələrindən gəlir. Onu da bilirəm ki, əsl vətənpərvər bir azərbaycanlı Kişi kimi onları heç vaxt unutmayacaq, balalarını oxudacaq, sonsuz təəssübkeşliyinlə ovundura biləcəksən...

Əzizim Kamal! Bizi lap sütül çağlarımızda böyük dostumuz Vaqif İbrahimoğlu tanış etmişdi. O zaman Vaqifə dedim ki, Kamalın üzü mənə elə tanış gəlir ki, bilmirəm onu harada görmüşəm... Vaqif də özünəməxsus bir tərzdə gülümsəyərək "antik və intibah dövrünün əzəmətli, mükəmməl, mütənasib üz cizgiləri olan heykəllərində görmüsən Kamalın üzünü...". Mən şaqqanaq çəkib güldüm və həməncə də razılaşdım. Düz sözə nə deyəsən! Uzun ömürlü dostluğumuz bu minvalla başladı...

Azərbaycanın görkəmli ziyalısı Kamal Abdulladan söz düşəndə həməncə İntibah dövründə İngiltərədə yazıb-yaradan (əsasən pyeslər!) və U.Şekspirin müasirləri olmuş bir qrup ziyalını (Con Lili, Kristofer Marlo və b.) xatırlayıram. Onlar dram sənətini yeni inkişaf mərhələsinə çatdıranlardır və ingilis teatrının tarixinə "universitet zəkaları" kimi həkk olunublar.

Heç şəksiz ki, Kamal Abdulla da "universitet zəkası"dır. Mükəmməl təhsilə, parlaq istedada, geniş intellektual potensiala və fəal vətəndaş mövqeyinə malik olan dostum Azərbaycanda görkəmli ali təhsil təşkilatçısıdır, gələcəyini quran gəncliyin memarıdır, onların dostudur, arxasıdır, yolgöstərənidir, harayayetənidir... O, hər bir tələbəyə, hər bir pedaqoqa, hər bir həmkarına həm yüksək tələbkarlıqla, həm də aşırı ehtiram, sevgi və qayğıyla yanaşmağı bacaran rektordur.

Dostum Kamal Abdulla yamanca gözəllik aşiqidir, hər yerdə, hər şeydə, hər işdə, hər kəsdə gözəllik və harmoniya axtarır, tapanda uşaq kimi sevinir. O, həyatının hər anını maraqlı, dopdolu və zəngin yaşayır, hamıya lazım olmaqdan sonsuz zövq alır...

Dostum doğru-dürüst bir insandır, dostlarının fəxarət yeridir, duz-çörək kəsdiyi insanlara aşırı sadiqdir... Kamal kimin dostudursa, bilsin ki, çox "varlı"dır. Böyük və kövrək ürək sahibi olan dostum həm də yaman yenilik tamarzısıdır, ondan imdad istəyəndən axırıncı qəpik-quruşunu əsirgəməyəndir... "Varını verən utanmaz!" müdrik el kəlamıyla yaşayan bu insanın zənginliyi maddi var-dövlət deyil, elmi, istedadı, insanlığıdır...

Kamal Abdulla bu mürəkkəb və gen dünyaya mübarək gəlişiylə Azərbaycanın dilçilik elmini, ali məktəb elmini, Azərbaycan ədəbiyyatını, Azərbaycan dramaturgiyası və teatrını, "milli ziyalı" anlayışını öz şəxsiyyəti və əməlləri nümunəsində yeni-yeni rənglərə bürüdü, məna və məzmunca zənginləşdirdi, dünyaya tanıtdı... "Bir, iki - Bizimki!", "Ruh", "Şah və şair və ya hamı səni sevənlər buradadır...", "Kim dedi ki, Simurq quşu var imiş..." və s. pyesləri, "Yarımçıq əlyazma", "Sehrbazlar dərəsi", "Gizli Dədə Qorqud" və başqa bənzərsiz romanları ilə bizi tariximizin dərinliklərinə, qərinələrə səyahətə çıxartdı, aləkeçməz, gözəgörünməz ruh dünyasına, insan sirlərinə, sehrlərinə agah etdi...

Kamalın sözügedən bu əsərlərindəki möhtəşəm Azərbaycan dili ana diliylə fəxr edən bir ziyalı kimi məni hər dəfə heyrətləndirir... həyəcanlandırır... Kamal Abdulla ta keçmişimizdən bu günümüzə qədər yaşamaq hüququ qazanmış ulu sözlərimizə özünün yüksək ədəbi-bədii səviyyəli ölməz mətnlərində yeni can verir... Əhsən sənə, əzizim Kamal!

Kamal Abdulla gündüzün qaynar universitet həyatından sonra özünün "ədəbiyyat hücrəsi"nə çəkilib təkbətək qalır... sehrbaza çevrilir... sonsuz xoşbəxtliyin ağuşuna atılır...

Böyük ədəbiyyat adamı olan dostum sabaha yönəli elmi və ədəbi yaradıcılığıyla (əsərləri 20-dən çox dilə çevrilib) basılmaz bir qaladır. Əsl azərbaycanlını tanımaq istəyirsənsə Kamal Abdullanı tanımaq bəsdir. Kamal öz xeyir əməlləriylə mənim özümə mərd, etibarlı, sədaqətli xalqımı, milli xarakterimizi yenidən tanıtdırdı (görkəmli rejissor, Kamalın böyük dostu Vaqif İbrahimoğlunun xəstəlik dönəmində).

Əsl dost, əsl müəllim, əsl alim, əsl söz adamı-yazar, əsl vətəndaş, əsl oğul, əsl həmkar... olmağın nümunəsidir Kamal Abdulla! Hər şeyin əslindəndir... xalisidir... Bu keyfiyyətləri Kamalın əsl-nəcabətindən irəli gəlir. O hara gedirsə, hansı kollektivdə çalışırsa özü ilə ora dəmir məntiq, intizam, vicdan, haqq-ədalət, bilik, zəka, istedad, sevgi aparır, bir sözlə, "dirilik suyu" və "işıq" daşıyır özüylə...

Bəli, Kamal Abdullanın özünəməxsus dünyasının "bapbalaca boyu var, dam dolusu toyu var"...

Ey söz xiridarı olan Ustad dostum! İnanıram ki, özün kimi mürəkkəb və mükəmməl olan ədəbi mətnlərin sətiraltı mənalarını gələcək nəsillərə aça-aça sonsuz... sonsuz... sonsuz... yaşayacaqdır.

Əziz dostum! Bu günə qədər necə yaşamısansa, bundan sonra da elə yaşa! Ürəyiaçıq, alnıaçıq, qapısıaçıq, əliaçıq.... Fəth etməli olduğun yeni ədəbi zirvələr... Şuşamız... Qarabağımız səni gözləyir... Arzum budur ki, tezliklə Qarabağda... Şuşada Ruhun pıçıltısını (sənin sözlərindir!) eşidəsən və möhtəşəm qələminlə Qarabağnaməmizi zənginləşdirəsən!

> **SOLDU NAR ÇİÇƏKLƏRİ, İNDİ NAR YETİŞƏCƏK!**
>
> Kamal ABDULLA